Ədəbiyyat qəzeti



# "Tanrı müjdəsi"nin sirli dünyası



Sərvaz HÜSEYNOĞLU

"Çeynənmə saqqıztək ağızlarda sən, Elə iş tutma ki, gözdən düşəsən" dərsi verir tanınmış şair Xanəli Kərimlinin "Tanrı müjdəsi" kitabı. Anladır ki, "Cəhd etmə çox sirrin üstün açmağa, Yoxsa yolun gedib dirənər dağa". Səbəbi, nəticəsi, çıxış yoluyla bir arada sərgiləyir taleyi izləyən problemləri. Ən çıxılmaz məqamda belə özünə sadiq ola bilməyin tövsiyəsini edir: "Gördün ki, düşmüsən şərə, böhtana, Düşmə min sifətə, girmə min dona...".

Qədim-qayım fikir qaynaqlarımızın bulağından su içən bu müdrik deyimlər, səmimi anlatmalar "Tanrı müjdəsi"nin səhifələri boyuncadı.

Bir də ustad, dost itkisindən doğan təəssüf hissinin göynəyi ürpərir sətirlər boyu. Bir də xatirələr, yadasalmalar... Bunun belə olduğunu bilmək üçün gərəkdi ki, "Toğluqalanın Məmməd Araza məktubu"nu oxuyasan, "Nənəm nağıl deyərdi", "Əlinə əl yetməz", "Şəhidlik nəğməsi", "Kaş qəlbimi görəydin", "Türkə ağı demək olmaz", "Nə mutluyam", "Saxla qəlbini buztək" və s. şeirlərin iç dünyasıyla tanış olasan. Müəllifin sevincini sevincin, kədərini kədərin kimi yaşayasan. Və gəlib dayanasan o misraların üstündə ki:

*İlahi, sən mənə bir dərddaş yetir,*
*Bir qulaq yoldaşı dolsun qəlbimə.*

Elçi daşına, yolçu daşına, ayaq daşına, başdaşına dönən adamlar aləminin ən sıx yerində bir qulaq yoldaşı ummağın sirri sir kimi süslənib hər misra altda.

*Mən dözüm anasıyam,*
*Dözməkdən dözüm yandı -*
*ağrısını çəkənlərin,*
*Vətən bir bədəndisə*
*Ağrıyan yeri mənəm*

- dəyərinə hesablananların yazısıdı "Tanrı müjdəsi". Və bir də dünyanın hər üzün dişinə vurub, naşı olanlara durumu bu yolla anladanların:

*Göylərin qatı mənəm,*
*Torpağın altı mənəm.*
*Nə var, nəyi görürsən? -*
*Hər şeyin zatı mənəm...*

Xanəli Kərimlinin 70 illik yubileyinə həsr olunmuş "Tanrı müjdəsi"nin redaktoru Nəriman Əbdürrəhmanlı, rəyçisi filologiya elmləri doktoru, professor Əsgər Rəsulovdur. Bütün tərtibatıyla "Taleyin öz yolu, öz ünvanı var, nə qədər cəhd etsən, dəyişməz yolun" dünyagörüşlüyünə hesablanıb.

Mili dəyərlərimizin, azadlıq mücadiləmizin, mənəviyyat və təbiət gözəlliklərimizin hədsiz qürur hissilə açılan bağçası kimidi. "Tanrı müjdəsi". Hüzur dolu şükranlığı yaşadır oxucularına. Bunun belə olduğunu bilmək üçün "Vur, əsgərim, haqq sənin, həqiqət də sənindir", "Kişilik bir zirvədir ki...", "Bayrağını uca qaldır, ana vətən", "İstanbulda düşüncələr", "Ağrıdağı", "Qış gözəlliyi", "Söz havası" adlı şeirləri dönədönə oxuyasan gərək. O şeirlərin ruhuna köklənəsən, məramınca yaşayasan. Deyə biləsən ki:

*Saz havası!..*
*Dədə Qorqud ünvanının xatirinə*
*Qaytar bizi Şah Xətai qeyrətinə;*




*O qeyrətin*
*düşmən bağrı çatlatdığı*
*bir dünyalıq heyrətinə!*

Elmi axtarışlar, söz sənəti yaşantıları ilə sərasər təmasda olan sənətkar ömrünün bədii ifadəsi kimi araya-ərsəyə gəlib. "Tanrı müjdəsi". "Taleyin öz yolu, öz ünvanı var" anlatmasıyla açılır. Məramı, istəyi "İlahi, sən mənə bir dərddaş yetir" misrasının boyuna biçilib. Nəticə, son nöqtə yenə də uzun ömrün qənaətlərilə qoyulub:

*Haradan gəldiyim özümə əyan,*
*Hara gedəcəyim - Tanrı işidir.*
*Mənim hər zərrəmdə bir gizliümman,*
*Əvvəli də sirdir, sonu da sirdir...*

**Elmi axtarışlar, söz sənəti yaşantıları ilə sərasər təmasda olan sənətkar ömrünün bədii ifadəsi kimi araya-ərsəyə gəlib. "Tanrı müjdəsi".**